# AZƏRBAYCAN RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ
# Q Ə R A R

**Avtomobil nəqliyyatı ilə beynəlxalq sərnişin və yük daşımaları fəaliyyətinin operatorunun məsul şəxslərinə, habelə beynəlxalq sərnişin və yük daşımalarını həyata keçirən sürücülərə hazırlığın və yenidən hazırlığın keçirilməsi və qiymətləndirilmənin aparılması qaydasının, qiymətləndirmənin nəticələrinə dair sənədin forması və qiymətləndirilmənin aparılmasına görə haqqın məbləğinin təsdiq edilməsi haqqında**

"Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 973-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2008-ci il 4 iyul tarixli 792 nömrəli, "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 23 fevral tarixli 1016-VQD nömrəli Qanununun tətbiqi və "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 22 noyabr tarixli 24 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında" 2018-ci il 17 aprel tarixli 1926 nömrəli, "Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin fəaliyyətinin təmin edilməsi və Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin fəaliyyətinin təmin edilməsi haqqında" 2011-ci il 20 iyul tarixli 472 nömrəli, "Sumqayıt şəhərində avtomobil nəqliyyatı ilə sərnişin daşınması sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında" 2015-ci il 7 dekabr tarixli 704 nömrəli və "Gəncə şəhərində avtomobil nəqliyyatı ilə sərnişin daşınması sahəsində idarəetmənin

təkmilləşdirilməsi haqqında" 2016-cı il 25 yanvar tarixli 750 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" 2022-ci il 8 sentyabr tarixli 1842 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 18 avqust tarixli 2300 nömrəli Fərmanının 2.1.8-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Avtomobil nəqliyyatı ilə beynəlxalq sərnişin və yük daşımaları fəaliyyətinin operatorunun məsul şəxslərinə, habelə beynəlxalq sərnişin və yük daşımalarını həyata keçirən sürücülərə hazırlığın keçirilməsi və qiymətləndirilmənin aparılması Qaydası" təsdiq edilsin (1 nömrəli əlavə).

2. "Avtomobil nəqliyyatı ilə beynəlxalq sərnişin və yük daşımaları fəaliyyətinin operatorunun məsul şəxslərinin, habelə beynəlxalq sərnişin və yük daşımalarını həyata keçirən sürücülərin hazırlığının qiymətləndirilməsinin nəticələrinə dair sənədlərin formaları" təsdiq edilsin (2 nömrəli əlavə).

3. Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən avtomobil nəqliyyatı ilə beynəlxalq sərnişin və yük daşımaları fəaliyyətinin operatorunun məsul şəxslərinin, həmçinin beynəlxalq sərnişin və yük daşımalarını həyata keçirən sürücülərin hazırlığı və yenidən hazırlığının nəticələrinə dair qiymətləndirmənin aparılmasına görə operatorun məsul şəxsi və ya beynəlxalq sərnişin və yük daşımalarını həyata keçirən sürücülər tərəfindən ödənilən haqqın məbləği 60 (altmış) manat təsdiq edilsin.

4. Bu Qərar "Avtomobil nəqliyyatı ilə beynəlxalq sərnişin və yük daşımaları fəaliyyətinin operatorunun məsul şəxsinin, həmçinin beynəlxalq sərnişin və yük daşımalarını həyata keçirən sürücülərin peşəkarlıq səriştəsinə dair Proqram"ı bitirmək haqqında etibarlılıq müddəti başa çatmamış şəhadətnamələrə malik olan şəxslərə şamil edilmir.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 9 iyul 2024-cü il

№ 335

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 9 iyul tarixli 335 nömrəli Qərarı ilə **təsdiq edilmişdir.**

**1 nömrəli əlavə**

# Avtomobil nəqliyyatı ilə beynəlxalq sərnişin və yük daşımaları fəaliyyətinin operatorunun məsul şəxslərinə, habelə beynəlxalq sərnişin və yük daşımalarını həyata keçirən sürücülərə hazırlığın və yenidən hazırlığın keçirilməsi və qiymətləndirilmənin aparılması

# QAYDASI

## 1.Ümumi müddəa

Bu Qayda “Avtomobil nəqliyyatı haqqında” Azərbaycan Respublikası Qanununun (bundan sonra – Qanun) 50.2-ci maddəsinin üçüncü və dördüncü cümlələrinə uyğun olaraq hazırlanmışdır və avtomobil nəqliyyatı ilə beynəlxalq sərnişin və yük daşımaları fəaliyyətinin operatorunun məsul şəxslərinin, habelə beynəlxalq sərnişin və yük daşımalarını həyata keçirən sürücülərin (bundan sonra – məsul şəxslər və sürücülər) peşəkarlıq səriştəsinə dair proqram üzrə hazırlıq və yenidən hazırlıq keçməsinin və qiymətləndirilmənin aparılmasının hüquqi əsaslarını müəyyən edir.

## 2. Məsul şəxslərə və sürücülərə hazırlığın və yenidən hazırlığın keçirilməsi

2.1. Məsul şəxslərin və sürücülərin hazırlığı və yenidən hazırlığı bu Qaydaların 1, 2 və 3 nömrəli əlavələrində qeyd olunan tədris proqramları əsasında Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində olan Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi (bundan sonra – Agentlik), habelə mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq, təhsil müəssisələri tərəfindən məsul şəxslərin və sürücülərin vəsaiti hesabına müqavilə bağlanılmaqla təşkil edilir və həyata keçirilir.

2.2. Hazırlıq üzrə məşğələlər tədris kabinetlərində, təlim meydançasında və simulyator (avtotrenajor) otaqlarında müvafiq

sahə üzrə yüksəkixtisaslı, təcrübəli müəllim və (və ya) təlim ustaları cəlb olunmaqla keçirilir.

2.3. Hazırlığın yüksək keyfiyyətini və səmərəliliyini təmin etmək məqsədilə tədris qrupları 35 nəfərdən çox və 10 nəfərdən az olmamaqla formalaşdırılır. Tədris proqramları üzrə məşğələlər nəzəri (mühazirələrdən) və praktiki hissələrdən ibarətdir. Məşğələlər bir gün ərzində 6 saatdan artıq olmamaqla keçirilir.

2.4. Məsul şəxslərin və sürücülərin hazırlığı üzrə tədris proqramında nəzərdə tutulmuş dərslərin saatı bu Qaydanın 1, 2 və 3 nömrəli əlavələri ilə müəyyən edilmiş tədris proqramlarında qeyd olunan qədər olmalı, həmin tədris proqramları üzrə yenidən hazırlıq isə həmin tədris proqramları əsasında dərs saatlarının 50 faizindən çox olmamalıdır.

2.5. Məsul şəxslər və sürücülər hazırlıq üzrə məşğələlərdə iştirak etmək üçün aşağıdakı sənədləri bu Qaydanın 2.1-ci bəndində qeyd olunan qurumlara təqdim etməlidirlər:

2.5.1. şəxsiyyəti təsdiq edən sənədin surəti;

2.5.2. 1 ədəd fotoşəkil (3x4 sm ölçüsündə);

2.5.3. sürücülük vəsiqəsinin surəti (sürücüyə münasibətdə).

2.6. Yenidən hazırlıqda iştirak etmək üçün müraciət edən məsul şəxs və ya sürücü bu Qaydanın 2.5-ci bəndində qeyd olunan sənədlərdən əlavə, hazırlıq keçməsini təsdiq edən müvafiq sənədi də təqdim etməlidir.

2.7. Bu Qaydanın 2.5-ci və 2.6-cı bəndlərində nəzərdə tutulmuş sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər şəxslərdən tələb edilmir. Belə sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi şəxslərin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya şəxslər tərəfindən təmin edilir.

2.8. Hazırlıqda iştirak etmək üçün müraciət etmiş və müvafiq sənədləri təqdim etmiş şəxslərə hazırlığın başlanılmasına azı 5 (beş) gün qalmış bu barədə onların əlaqə vasitələrinə (mobil telefon nömrəsi və ya elektron poçt ünvanı) məlumat verilir.

2.9. Hazırlıq və yenidən hazırlıq üzrə məşğələlər əyani formada keçirilir. Hazırlıq və yenidən hazırlıq üzrə məşğələlərin nəzəri hissəsi fors-major hallarda, habelə operatorun əsaslandırılmış müraciəti əsasında həmin məşğələləri keçirən bu Qaydanın 2.1-ci bəndində qeyd olunan qurumların qərarı əsasında distant formada və ya əyani və distant formanın birgə tətbiqi ilə keçirilir.

2.10. Hazırlıq və yenidən hazırlıq zamanı şəxslər bu Qaydanın 2.1-ci bəndində qeyd olunan qurumlar tərəfindən kağız və (və ya) elektron daşıyıcılarda hazırlıq materialları ilə təmin olunurlar.

2.11. Hazırlıq və yenidən hazırlıq üzrə dərs saatlarının 50 faizində iştirak etməyən şəxslər hazırlıq və yenidən hazırlıq üzrə qiymətləndirilməyə buraxılmırlar və həmin şəxslər təkrar hazırlıq və yenidən hazırlığa cəlb edilməlidirlər.

## 3. Məsul şəxslərin və sürücülərin hazırlığının və yenidən hazırlığının nəticələrinin qiymətləndirilməsinin aparılması

3.1. Bu Qaydaya əsasən hazırlıq və ya yenidən hazırlıq üzrə məşğələlərdə iştirak edən məsul şəxslərin və sürücülərin hazırlıq səviyyəsi hazırlığın və ya yenidən hazırlığın yekununda onlarla Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi (bundan sonra - Mərkəz) arasında bağlanılmış müqavilə əsasında test üsulu ilə qiymətləndirilir.

3.2. Test tapşırıqları bu Qaydanın 1, 2 və 3 nömrəli əlavələrində nəzərdə tutulmuş proqramları əhatə edən mövzular üzrə Mərkəz tərəfindən müəyyən olunur.

3.3. Hazırlıq və ya yenidən hazırlıq keçmiş məsul şəxslər və sürücülər barədə aşağıdakı məlumatlar bu Qaydanın 2.1-ci bəndində qeyd olunan qurumlar tərəfindən hazırlığın və yenidən hazırlığın başa çatmasından sonra 2 (iki) iş günü ərzində Mərkəzə təqdim edilir:

3.3.1. soyadı, adı, atasının adı və şəxsiyyət vəsiqəsinin FİN kodu;

3.3.2. hazırlıq və yenidən hazırlıq keçdiyi tədris proqramı və hazırlıq materialları;

3.3.3. sürücülük vəsiqəsinin nömrəsi, etibarlılıq müddəti və kateqoriyası (sürücülərə münasibətdə).

3.4. Bu Qaydanın 3.2-ci bəndində nəzərdə tutulmuş məlumatlar təqdim edildikdən sonra Mərkəz tərəfindən bu Qaydanın 3.6.4-cü yarımbəndinə uyğun olaraq qiymətləndirilmənin keçirilməsi tarixinə dair elan verilir. Qiymətləndirilmə təqvim ili ərzində 4 (dörd) dəfədən çox olmamaqla keçirilir.

3.5. Qiymətləndirilmədə iştirak etmək üçün namizəd sənəd qəbulunun həyata keçirildiyi müddət ərzində Mərkəzin internet portalı (bundan sonra - portal) vasitəsilə onlayn qeydiyyatdan keçir, Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi məbləğdə ödəniş edir və ona qeydiyyatdan keçdiyini təsdiq edən

elektron bildiriş və qiymətləndirilmə qaydaları barədə məlumatların əks olunduğu yaddaş kitabçası göndərilir.

3.6. Qiymətləndirilmənin təşkili ilə əlaqədar Mərkəz:

3.6.1. qiymətləndirilmənin keçiriləcəyi tarixi, yeri və aparılma texnologiyasını müəyyən edir;

3.6.2. test tapşırıqlarına dair düzgün cavabların siyahısını tərtib edir və konfidensiallığın gözlənilməsi şərtilə həmin siyahının xüsusi ayrılmış məlumat bazasında saxlanılmasını təmin edir;

3.6.3. qiymətləndirilmədə iştirak edəcək nəzarətçiləri müəyyən edir;

3.6.4. qiymətləndirilmənin keçirilmə tarixindən ən azı 1 (bir) ay əvvəl sənəd qəbuluna dair elan verir;

3.6.5. qiymətləndirilmənin qrafikini internet saytı və çap mediası subyekti vasitəsilə yayır;

3.6.6. qiymətləndirilmənin keçirilməsinə 7 (yeddi) gün qalmış namizədlərin qiymətləndirməyə buraxılış vərəqəsini portala yerləşdirir;

3.6.7. qiymətləndirilmədə iştirak edəcək hər bir namizədə şəxsi eyniləşdirmə kodu verir;

3.6.8. qiymətləndirilmənin təşkili, keçirilməsi və nəticələri ilə əlaqədar ərizə, şikayət və təkliflərə baxır və həll edir;

3.6.9. qiymətləndirilmənin nəticəsi haqqında məlumatları portala yerləşdirir;

3.6.10. qiymətləndirilmənin nəticəsinin elan edildiyi gündən 15 (on beş) gün müddətində bu Qaydanın 3.16-cı bəndi ilə müəyyən edilmiş sənədi verir.

3.7. Qiymətləndirilmə qanunçuluq, obyektivlik, bərabərlik, şəffaflıq və aşkarlıq prinsipləri əsasında keçirilir.

3.8. Hazırlıq və ya yenidən hazırlıq keçmiş şəxslər şəxsiyyətini təsdiq edən sənədi və buraxılış vərəqəsini təqdim etməklə qiymətləndirilmədə iştirak edirlər.

3.9. Qiymətləndirilmə zamanı hazırlıq və ya yenidən hazırlıq keçmiş şəxslərin aşağıdakı hərəkətlərə yol verməsi qadağandır:

3.9.1. saxta və ya başqasına aid sənəd təqdim etmək, qiymətləndirməyə öz yerinə başqasını göndərmək və ya sərxoş vəziyyətdə gəlmək;

3.9.2. qiymətləndirilməyə mobil telefon və digər rabitə vasitələri, kalkulyator, konspekt, lüğət, cədvəl, məlumat kitabçası və digər yardımçı vasitələr gətirmək və onlardan istifadə etmək;

3.9.3. qiymətləndirilmənin keçirildiyi binaya yandırıcı, partlayıcı, kəsici, deşici, atıcı və digər bu qəbildən olan əşyalarla daxil olmaq, özü ilə tütün məmulatı gətirmək;

3.9.4. səbəbindən asılı olmayaraq, qiymətləndirilmə başlandığı andan yerini dəyişmək, gəzişmək, yerindən durmaq və qiymətləndirilmənin gedişinə mane olmaq;

3.9.5. başqasının qiymətləndirilmə nəticəsinə təsir göstərmək, o cümlədən başqasının cavab kartına (vərəqinə), sual kitabçasına baxmaq və ya öz cavab kartına (vərəqinə), sual kitabçasına başqasının baxmasına şərait yaratmaq, sualın cavabını soruşmaq və ya bildirmək;

3.9.6. nəzarətçiyə və ya digər şəxslərə tapşırıqların həllində kömək üçün müraciət etmək;

3.9.7. cavab kartını (vərəqini) və sual kitabçasını nəzarətçiyə təhvil vermədən qiymətləndirilmənin keçirildiyi zalı tərk etmək.

3.10. Mərkəz tərəfindən namizədin bu Qaydanın 3.9-cu bəndində qeyd edilən hərəkətlərə yol verməsi halları aşkar edildikdə onun qiymətləndirilmə nəticələri ləğv edilir.

3.11. Texniki səbəblərdən qiymətləndirilmənin aparılması mümkün olmadıqda, Mərkəzin qərarı əsasında qiymətləndirilmə davam etdirilir və ya yenidən aparılır.

3.12. Qiymətləndirmə zamanı hazırlığı və ya yenidən hazırlığı bitirmiş şəxslərə xüsusi proqram üzrə 25 (iyirmi beş) test tapşırığı təqdim edilir. Qiymətləndirilmə müddəti 60 (altmış) dəqiqədir.

3.13. Qiymətləndirilmədə təqdim edilən test tapşırıqlarının 60 faizini və daha çoxunu doğru cavablandıran şəxslər hazırlığı və ya yenidən hazırlığı müvəffəqiyyətlə bitirmiş hesab edilirlər.

3.14. Qiymətləndirilmənin nəticəsindən narazı qalan hazırlıq və ya yenidən hazırlıq keçmiş şəxslər bu barədə nəticənin ona elan olunduğu vaxtdan 3 (üç) iş günü müddətində Mərkəz tərəfindən yaradılmış apellyasiya komissiyasına müraciət edə bilər.

3.15. Müraciətə aidiyyəti mütəxəssislər tərəfindən baxılır, hazırlıq və yenidən hazırlıq keçmiş şəxslərə Mərkəz tərəfindən əsaslandırılmış cavab verilir. Hazırlıq və ya yenidən hazırlıq keçmiş şəxslərin qiymətləndirilmə nəticələrinin düzgün hesablanmadığı aşkar edildikdə, yenidən hesablama aparılır və onların nəticələri yenilənir.

3.16. Hazırlıq və ya yenidən hazırlıq üzrə qiymətləndirilmədən keçmiş şəxslərə Mərkəz tərəfindən etibarlılıq müddəti 7 (yeddi) il olan və forması bu Qərarın 2-ci hissəsi ilə təsdiq edilmiş Qaydaya 2 nömrəli əlavə ilə müəyyən olunmuş formaya uyğun sənəd (şəhadətnamə) təqdim edilir.

3.17. Bu Qaydanın 3.13-ci bəndində nəzərdə tutulan nəticəni əldə etməyən şəxslər hazırlıq və ya yenidən hazırlıq keçmədən 2 (iki)

dəfə təkrar qiymətləndirilmədə iştirak edə bilərlər. Qiymətləndirilmədən keçə bilməyən şəxslər hazırlıq və ya yenidən hazırlıqda təkrar iştirak edə bilərlər. Təkrar qiymətləndirmədən keçməyən şəxslər hazırlığı və ya yenidən hazırlığı təkrar keçməlidirlər.

3.18. Verilmiş sənəd (şəhadətnamə) əvvəlki nömrəsi saxlanılmaqla aşağıdakı hallarda şəxsin müraciəti əsasında 5 (beş) iş günü ərzində Mərkəz tərəfindən eyni hüquqi qüvvəyə malik sənəd (şəhadətnamə) ilə dəyişdirilə bilər:

3.18.1. onu almış şəxsin soyadı, adı, atasının adı dəyişdikdə;

3.18.2. sənəddə (şəhadətnamədə) yazılan məlumatlarda yanlışlıq və ya səhv aşkar edildikdə;

3.18.3. sənəd (şəhadətnamə) yararsız hala düşdükdə.

3.19. Verilmiş sənəd (şəhadətnamə) itirildikdə 5 (beş) iş günü ərzində Mərkəz tərəfindən onun qüvvədəolma müddəti göstərilməklə dublikatı verilir.

3.20. Verilmiş sənədin (şəhadətnamənin) ləğv edilməsi "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada aparılır.

3.21. Mərkəz tərəfindən verilmiş sənədlər (şəhadətnamələr) haqqında məlumatlar "AYNA" informasiya sisteminə daxil edilir (ötürülür) və onların ölkə üzrə vahid uçotu "AYNA" informasiya sistemi vasitəsilə aparılır.

3.22. Məsul şəxslərin və sürücülərin bu Qaydanın 2.1-ci bəndində qeyd olunan qurumların, həmçinin Mərkəzin hərəkətlərindən (hərəkətsizliyindən) və qərarlarından inzibati qaydada və məhkəməyə şikayət vermək hüququ vardır.

"Avtomobil nəqliyyatı ilə beynəlxalq sərnişin və yük daşımaları fəaliyyətinin operatorunun məsul şəxslərinə, habelə beynəlxalq sərnişin və yük daşımalarını həyata keçirən sürücülərə hazırlığın keçirilməsi və qiymətləndirilmənin aparılması Qaydası"na

**1 nömrəli əlavə**

# Avtomobil nəqliyyatı ilə beynəlxalq sərnişin və yük daşımaları fəaliyyətinin operatorunun məsul şəxslərinin peşəkarlıq səriştəsinə dair

# PROQRAM

| Sıra №-si | Mövzuların adı | Hazırlıq üzrə məşğələlərin növləri və həcmi (saatla) | | |
|---|---|---|---|---|
| | | cəmi (saat) | nəzəri hissə (mühazirələr) (saat) | praktiki hissə (saat) |
| 1 | 2 | 3 | 4 | 5 |
| **1. Avtomobil nəqliyyatı ilə beynəlxalq daşımaların xüsusiyyətləri, mövcud vəziyyəti və perspektivləri** | | | | |
| 1.1. | - avtomobil nəqliyyatı ilə beynəlxalq daşımaların xüsusiyyətləri və növləri;<br>- Avropa İttifaqı ölkələrində və daşımaların həyata keçirildiyi digər ölkələrdə avtomobil nəqliyyatı ilə beynəlxalq daşımaların əsas xüsusiyyətləri;<br>- beynəlxalq nəqliyyat dəhlizləri;<br>- malların (yüklərin) təsnifat sisteminin və kodlaşdırılmasının tətbiqi;<br>- avtomobil nəqliyyatı ilə beynəlxalq daşımalarda informasiya kommunikasiya texnologiyalarının tətbiqi;<br>- avtomobil nəqliyyatı ilə beynəlxalq daşımaları həyata keçirən sürücülərin peşəkarlıq səriştəsinə dair hazırlığın və yenidən hazırlığın keçirilməsi qaydası | 3 | 3 | |

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| **Mövzu üzrə saatların cəmi:** | | **3** | **3** | |
| **2. Avtomobil nəqliyyatı ilə beynəlxalq daşımaların tənzimlənməsinin hüquqi əsasları** | | | | |
| 2.1. | - avtomobil nəqliyyatı və yol hərəkətinin təhlükəsizliyi sahələrində qanunvericilik;<br>- avtomobil nəqliyyatı ilə beynəlxalq daşımalar sahəsində milli və beynəlxalq qanunvericilik (o cümlədən Azərbaycan Respublikasının qoşulduğu beynəlxalq müqavilələr);<br>- avtomobil nəqliyyatı ilə beynəlxalq daşımaların tənzimlənməsində beynəlxalq təşkilatlar, dövlət qurumları və digər təşkilatlar (ictimai birliklər, kommersiya və qeyri-kommersiya təşkilatları və s.), bu sahədə onların rolu və fəaliyyəti;<br>- daşımaların yerinə yetirilməsinə dövlət nəzarəti | 2 | 2 | |
| 2.2. | - daşıyıcıların, sürücülərin, sərnişinlərin hüquqları, vəzifələri və məsuliyyəti;<br>- avtomobil nəqliyyatı ilə beynəlxalq daşımaları tənzimləyən “İcazə Sistemi”;<br>- iriqabaritli, ağırçəkili və təhlükəli yüklərin daşınması sahəsində lisenziyalar (icazələr);<br>- avtomobil nəqliyyatı ilə beynəlxalq daşımalar sahəsində tətbiq olunan müqavilələr;<br>- ticarət terminlərinin təfsirinin beynəlxalq Qaydaları “İnkoterms” şərtləri | 4 | 4 | |
| **Mövzu üzrə saatların cəmi:** | | **6** | **6** | |
| **3. Avtonəqliyyat vasitələrinə dair tələblər** | | | | |
| 3.1. | - avtonəqliyyat vasitələrinə dair ümumi tələblər;<br>- təkərli avtonəqliyyat vasitələrinin beynəlxalq təsnifatı, dartqı, qoşqu və yarımqoşqular, avtoqatarlar; | 2 | 2 | |

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| | - avtonəqliyyat vasitələrinin qısa texniki xarakteristikası və təchizatı | | | |
| 3.2. | - avtonəqliyyat vasitələrinin qabarit, çəki və yüklə birlikdə oxa düşən kütlə parametrləri;<br>- mühərrikin gücü və yanacaq sərfiyyatı;<br>- avtonəqliyyat vasitələrinə dair ekoloji tələblər;<br>- avtonəqliyyat vasitəsinin aparılan yükün xüsusiyyətlərinə uyğunluğu;<br>- avtonəqliyyat vasitələrinin təhlükəsizliyini artıran intellektual nəqliyyat sistemləri | 3 | 3 | |
| 3.3. | - avtonəqliyyat vasitələrinin istismarına dair tələblər, texniki xidmət və qulluq, istismar zamanı təhlükəsizliyə nəzarət;<br>- avtonəqliyyat vasitələrinin Azərbaycan Respublikasına idxalı (o cümlədən lizinq və icarə müqavilələri əsasında), idxalla bağlı ekoloji tələblər, dövlət qeydiyyatına alınmanın və dövlət texniki baxışının xüsusiyyətləri | 3 | 3 | |
| **Mövzu üzrə saatların cəmi:** | | **8** | **8** | |
| **4. Yol hərəkətinin təhlükəsizliyi** | | | | |
| 4.1. | - yol hərəkətinin təhlükəsizliyi sahəsində milli və beynəlxalq qanunvericilik;<br>- yol nişanları və yolun nişanlanması;<br>- yol hərəkəti qaydaları;<br>- yol hərəkəti qaydalarının pozulmasına görə tətbiq edilən cərimələr;<br>- müxtəlif dövlətlərin ərazisində hərəkətə tətbiq edilmiş zaman məhdudiyyətləri ilə bağlı məlumat | 4 | 4 | |
| 4.2. | - yol-nəqliyyat hadisələri zamanı görülən tədbirlər; | 2 | 2 | |

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| | - yol-nəqliyyat hadisəsinin rəsmiləşdirilməsi | | | |
| 4.3. | İlk tibbi yardım:<br>- ilk tibbi yardım barədə ümumi məlumat;<br>- ilk tibbi yardım qutusunun tərkibi və ondan istifadə;<br>- yol-nəqliyyat hadisəsi baş verdikdə, ilk tibbi yardım göstərilməsinin ardıcıllığı | 2 | 1 | 1 |
| 4.4. | - hərəkət təhlükəsizliyinin əsasları;<br>- sürücülərin psixoloji vəziyyətinin hərəkət təhlükəsizliyinə təsiri;<br>- ekstremal şəraitlərdə sürücülərin düzgün qərar qəbul etməsi;<br>- baş verə biləcək yol-nəqliyyat hadisələrinin vaxtında qarşısının alınması üçün görülən tədbirlər;<br>- avtonəqliyyat vasitələrinin texniki vəziyyətinin reysqabağı yoxlanılması və sürücülərin reysqabağı tibbi müayinəsi | 2 | 2 | |
| 4.5. | Yükgötürmə və yükləmə:<br>- avtonəqliyyat vasitəsinin və ya avtonəqliyyat vasitələri kombinasiyasının yükgötürmə qabiliyyətinin xüsusiyyətləri;<br>- yükün təhlükəsiz yüklənməsi;<br>- texniki tələblərlə müəyyən edilmiş oxa düşən yük normasından artıq yükün avtonəqliyyat vasitəsinə yüklənməsinin nəticələri;<br>- avtonəqliyyat vasitəsinin stabilliyi və ağırlıq mərkəzi;<br>- yükün bərabər paylanması və bərkidilməsi;<br>- yükün yerləşdirilməsinə və bərkidilməsinə dair tələblər;<br>- yükün bərkidilmə metodları və vasitələri;<br>- təhlükəsizlik tədbirlərinin görülməsi tələb olunan yüklərin əsas kateqoriyaları; | 4 | 3 | 1 |

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| | - məngənə ilə bağlama və təhlükəsizliyi təmin etmə texnikaları;<br>- təhlükəsizlik kəmərlərindən istifadə;<br>- yükləmə avadanlığından istifadə, brezentlərin yerləşdirilməsi və yığışdırılması | | | |
| 4.6. | Sürücülərin sağlamlığı:<br>- sürücülərin iş və istirahət rejimi;<br>- taxoqraflardan istifadə;<br>- sürücü, daşıyıcı, nəzarətçi və emalatxana kartları;<br>- sürücülərin növbəliliyi;<br>- iş və istirahət rejiminə əməl edilməsinə nəzarət, ölkədaxili və beynəlxalq praktika, məsuliyyət müəyyən edən normalar və onların tətbiqi üzrə təcrübə | 6 | 5 | 1 |
| **Mövzu üzrə saatların cəmi:** | | **20** | **17** | **3** |
| **5. Logistikanın əsasları** | | | | |
| 5.1. | - logistika və ekspedisiyanın anlayışı, onların məqsədi, prinsipləri və formaları;<br>- logistikada təminat sistemi;<br>- ekspeditorlar, nəqliyyat müəssisələri, anbar operatorları, brokerlər və s.;<br>- 3-cü tərəf logistika xidmətləri təchizatçıları (3PL provayderləri);<br>- logistin və ekspeditorun funksiyaları;<br>- malların çatdırılmasının logistik zəncirləri;<br>- nəqliyyat növünün seçilməsi və logistik əməliyyatlarda avtomobil nəqliyyatının rolu;<br>- logistik mərkəzlər və terminallar | 4 | 4 | - |
| **Mövzu üzrə saatların cəmi:** | | **4** | **4** | |

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| **6. Avtomobil nəqliyyatı ilə beynəlxalq daşımaların təşkili** | | | | |
| 6.1. | Beynəlxalq daşımaların rəsmiləşdirilməsi:<br>- Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 17 sentyabr tarixli 142 nömrəli Qərarı ilə təsdiq edilmiş "Avtomobil nəqliyyatı ilə yüklərin daşınması Qaydaları";<br>- Azərbaycan Respublikasının 2000-ci il 11 fevral tarixli 812-IQ nömrəli Qanunla qoşulduğu "Beynəlxalq yük daşınması müqaviləsi haqqında" Konvensiya (BYDM);<br>- "Beynəlxalq kombinə edilmiş daşımalarda mühüm nəqliyyat yolları və onlarla əlaqəli müvafiq obyektlər haqqında" Avropa Sazişi (AGTC);<br>- Azərbaycan Respublikasının 1996-cı il 31 may tarixli 109-IQ nömrəli Qanunla qoşulduğu "Beynəlxalq avtomagistrallar haqqında Avropa Sazişi";<br>- daşıma zamanı yükgöndərənin, ekspeditorun, daşıyıcının, yükalanın və gömrük orqanlarının qarşılıqlı münasibətləri;<br>- beynəlxalq nümunəli əmtəə-nəqliyyat qaiməsinin (CMR) rəsmiləşdirilməsi;<br>- yüklərin çatdırılmasının xüsusi razılaşdırılmış şərtləri;<br>- yükün dəyərinin elan edilməsi;<br>- yükün qəbulu və təhvili, yükün yönəldilməsi və tərəflərin məsuliyyəti;<br>- daşımaların və ya yükün tamlığının təmin edilməsi üsulları;<br>- hərəkət marşrutunun və qrafikinin müəyyən edilməsi, avtonəqliyyat vasitələrinin hərəkətinin təşkili | 4 | 4 | |

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| 6.2. | Avtomobil nəqliyyatı ilə beynəlxalq yük (sərnişin) daşımaları üçün zəruri olan sənədlər:<br>- sürücü üçün tələb olunan sənədlər;<br>- avtonəqliyyat vasitəsi üçün tələb olunan sənədlər;<br>- yükə aid sənədlər;<br>- avtomobil nəqliyyatı ilə beynəlxalq sərnişin daşımalarında icazələr və tələb olunan digər sənədlər;<br>- tətbiq olunan yol vərəqəsinin forması və doldurulması qaydası | 2 | 2 | |
| 6.3. | Təhlükəli yüklərin daşınması:<br>- Azərbaycan Respublikasının 2000-ci il 18 iyul tarixli 913-IQ nömrəli Qanunla qoşulduğu “Təhlükəli yüklərin quru yollar ilə beynəlxalq daşımaları haqqında” Avropa Sazişi (DOPOQ) və İmzalama Protokolu;<br>- Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 27 yanvar tarixli 10 nömrəli Qərarı ilə təsdiq edilmiş “Təhlükəli yüklərin avtomobil nəqliyyatı ilə daşınması Qaydaları”;<br>- təhlükəli yüklərin təsnifatı və daşınması;<br>- təhlükəli yüklər barədə nişanlar və informasiya lövhələri | 2 | 2 | |

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| 6.4. | İriqabaritli və ağırçəkili yüklərin daşınması barədə məlumat:<br>- iriqabaritli və ağırçəkili yüklər, onların daşınması barədə məlumat;<br>- konteynerlərdə, paletlərdə və çıxarılabilən banlarda daşımalar barədə məlumat;<br>- konteynerlərin və paletlərin banlarda yerləşdirilməsi və bərkidilməsi;<br>- avtonəqliyyat vasitəsinin oxlarına düşən yükün paylanması;<br>- multimodal, intermodal, Ro-Ro və Lo-Lo daşımaları;<br>- Azərbaycan Respublikasının 2004-cü il 21 may tarixli 672-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş “Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin avtomobil yollarında dövlətlərarası daşımaları həyata keçirən nəqliyyat vasitələrinin kütlə və ölçüləri haqqında” Saziş | 2 | 2 | |
| 6.5. | Tezkorlanan və digər yüklərin daşınması:<br>- Azərbaycan Respublikasının 2000-ci il 11 fevral tarixli 811-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş “Tezkorlanan qida məhsullarının beynəlxalq daşınması və bu daşımalar üçün istifadə olunan xüsusi nəqliyyat vasitələri haqqında (TDS)” Saziş;<br>- tezkorlanan yüklərin daşınmasının xüsusiyyətləri;<br>- avtonəqliyyat vasitələrinin müayinəsi, yükün yüklənməsi və daşınması zamanı temperatur rejimi, temperatur rejiminə nəzarət və termoqraflar;<br>- canlı heyvanların daşınması ilə bağlı qayda və prosedurların tətbiqi, habelə sənədləşdirmə | 2 | 2 | |
| 6.6. | Sərnişin daşımaları: | 4 | 4 | |

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| | - avtomobil nəqliyyatı ilə beynəlxalq sərnişin daşımalarının təşkili və yerinə yetirilməsinin xüsusiyyətləri;<br>- avtovağzallar (avtostansiyalar) və sərnişin terminalları;<br>- sərnişinlərin təhlükəsiz daşınması;<br>- sərnişin axınlarının tədqiqi və daşımaların mövsümiliyi;<br>- müntəzəm daşımalarda marşrutun açılması qaydası, şərtləri və məqsədəuyğunluğu;<br>- müntəzəm marşrutun bağlanması və ya həmin marşrutda dəyişiklik edilməsi;<br>- sərnişin daşımalarında avtobusların növləri;<br>- biletin, baqaj qəbzinin və birkasının forması və onların sənədləşdirilməsi;<br>- sərnişin avtonəqliyyat vasitəsinin icarə (fraxtetmə) müqaviləsi;<br>- qeyri-müntəzəm sərnişin daşımalarında daşıma marşrutları;<br>- qeyri-müntəzəm sərnişin daşımalarında formulyarın doldurulması;<br>- beynəlxalq turizm üzrə nəqliyyat xidmətləri;<br>- sərnişinlərin beynəlxalq daşınması zamanı viza təminatı;<br>- uşaq qruplarının daşınmasının xüsusiyyətləri | | | |
| 6.7. | Avtomobil nəqliyyatı ilə beynəlxalq daşımalarda sığorta:<br>- avtomobil nəqliyyatı ilə daşımalarda sığorta anlayışı və onun ümumi prinsipləri;<br>- sığorta hadisəsi, obyekti və sığorta müqaviləsi;<br>- sığorta hadisəsinin sənədləşdirilməsi qaydası;<br>- icbari və könüllü sığortanın növləri;<br>- işçi heyətin tibbi sığortası; | 1 | 1 | |

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| | - avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası, o cümlədən Yaşıl Kart Sistemi;<br>- sərnişinlərin icbari fərdi qəza sığortası;<br>- sürücünün bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığortalanması | | | |
| **Mövzu üzrə saatların cəmi:** | | **17** | **17** | |
| | **7. Gömrük prosedurları və sənədləşmə** | | | |
| 7.1. | Gömrük nəzarəti və gömrük orqanları:<br>- idxal və ixrac zamanı gömrük prosedurları və onların növləri;<br>- gömrük bəyannaməsi;<br>- avtonəqliyyat vasitələrinin bəyan edilməsi;<br>- qısa idxal bəyannaməsinin verilməsi;<br>- gömrük proseduru ilə bağlı yükləmə, boşaltma və digər əməliyyatlar, o cümlədən avtonəqliyyat vasitəsinin dəyişdirilməsi;<br>- nəqliyyat vasitəsində yanacağın, alətlərin və ehtiyat hissələrinin daşınması;<br>- fiziki şəxslər tərəfindən malların şəxsi istifadə üçün gömrük sərhəddindən keçirilməsi;<br>- gömrük rəsmiləşdirilməsi üçün zəruri olan sənədlər və məlumatlar;<br>- “BYD Kitabçası tətbiq edilməklə beynəlxalq yük daşımaları haqqında” Gömrük Konvensiyası;<br>- “Konteynerlərə aid Gömrük Konvensiyası”;<br>- “Sərhədlərdə yüklərin nəzarətdən keçirilməsi şərtlərinin razılaşdırılması haqqında” Beynəlxalq Konvensiya | 10 | 9 | 1 |
| **Mövzu üzrə saatların cəmi:** | | **10** | **9** | **1** |

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| **8. Viza rəsmiləşdirilməsi** | | | | |
| **8.1.** | - avtomobil nəqliyyatı ilə beynəlxalq daşımalarda viza təminatı və pasport;<br>- viza ilə və ya vizasız giriş;<br>- ölkələrin viza sistemi;<br>- ərazisindən daşıma həyata keçirilən ölkələrdən viza alınmasının xüsusiyyətləri;<br>- viza verilməsinin ümumi qaydası;<br>- Şengen Müqaviləsi ölkələrinin viza sistemi;<br>- Şengen Müqaviləsi ölkəsinin vizasından istifadəyə məhdudiyyətlər | 1 | 1 | |
| **Mövzu üzrə saatların cəmi:** | | **1** | **1** | |
| **9. Daşıyıcının təsərrüfat və maliyyə fəaliyyətinin, insan resurslarının idarə edilməsi** | | | | |
| 9.1. | Təsərrüfat fəaliyyətinin idarə edilməsi:<br>- nəqliyyat müəssisələri;<br>- avtonəqliyyat vasitələrinin saxlanılması üçün istehsalat sahələri;<br>- nəqliyyat xidmətləri bazarı və onun tədqiqi;<br>- nəqliyyat xidmətlərinin menecmenti və marketinqi;<br>- istehsal fəaliyyətinin rentabelliyi;<br>- biznes-planın işlənilməsi;<br>- müxtəlif kreditləşmə formaları;<br>- sahibkarlığa yardım mexanizmləri;<br>- sənəd dövriyyəsi və hesabatlılıq | 4 | 4 | |

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| 9.2. | Maliyyə fəaliyyətinin idarə edilməsi:<br>- büdcənin formalaşdırılması və tətbiqi;<br>- gəlirin, xərclərin (o cümlədən nəqliyyat vasitəsinə, kilometraja, reysə və ya tonnaja görə) və mənfəətin hesablanması;<br>- daşıma fəaliyyəti ilə bağlı qiymətlər və tariflər;<br>- sərnişin və yük daşımalarında qiymətlər, bu qiymətlərin formalaşdırılması;<br>- avtomobil nəqliyyatı ilə daşımalarla əlaqədar vergilər və digər məcburi ödənişlər;<br>- bank sistemi, əməliyyatları və faizləri;<br>- beynəlxalq hesablaşma əməliyyatları;<br>- ödəniş üsulları ilə bağlı hüquqi baza və praktika | 4 | 4 | |
| 9.3. | İnsan resurslarının idarə edilməsi:<br>- əmək şəraiti və əməyin səmərəliliyi;<br>- müəssisədaxili korporativ münasibətlər;<br>- vəzifə təlimatları;<br>- işçilərin hazırlanması, ilkin ixtisası, ixtisasının artırılması və davamlı təlimi;<br>- işçilərlə əmək müqaviləsinin bağlanılması;<br>- təşkilati qrafik və iş planlarının tərtib edilməsi;<br>- işəgötürənin sosial təminatla bağlı öhdəlikləri;<br>- sürücülərin və digər işçilərin təhlükəsizlik texnikası üzrə mütəmadi təlimatlandırılması, istehsalat sahəsinin sanitariyası, yanğın əleyhinə və əməyin mühafizəsi qaydalarına riayət olunmasının təmin edilməsi | 4 | 4 | |
| **Mövzu üzrə saatların cəmi:** | | **12** | **12** | |

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| **10. Avtonəqliyyat vasitələrinin sürücülərinə dair tələblər və onların davranışının işgüzar nüfuza təsiri** | | | | |
| 10.1. | Sürücülərə dair ümumi tələblər:<br>- sürücülərin hazırlığı və yenidən hazırlığı;<br>- sürücülərin xarici görünüşü və geyim forması;<br>- sürücünün davranışı və şirkətin işgüzar nüfuzu;<br>- sürücü tərəfindən göstərilən xidmətin səviyyəsinin şirkət üçün əhəmiyyəti;<br>- sürücünün ünsiyyət qurduğu şəxslər;<br>- sürücülərin etik normalara riayət etməsi və davranış qaydaları | 2 | 2 | |
| **Mövzu üzrə saatların cəmi:** | | **2** | **2** | |
| **11. İnsan alverinin qarşısının alınması və onunla mübarizə aparılması** | | | | |
| 11.1. | - insan alverinin qarşısının alınması və onunla mübarizə aparılması barədə məlumat. | 1 | 1 | |
| **Mövzu üzrə saatların cəmi:** | | **1** | **1** | |
| **Ümumi tədris proqramı üzrə saatların cəmi:** | | **84** | **80** | **4** |

"Avtomobil nəqliyyatı ilə beynəlxalq sərnişin və yük daşımaları fəaliyyətinin operatorunun məsul şəxslərinə, habelə beynəlxalq sərnişin və yük daşımalarını həyata keçirən sürücülərə hazırlığın keçirilməsi və qiymətləndirilmənin aparılması Qaydası"na

**2 nömrəli əlavə**

# Avtomobil nəqliyyatı ilə beynəlxalq yük daşımalarını həyata keçirən sürücülərin peşəkarlıq səriştəsinə dair PROQRAM

| Sıra №-si | Mövzuların adı və tədris sualları | Hazırlıq üzrə məşğələlərin növləri və həcmi (saatla) | | |
|---|---|---|---|---|
| | | cəmi (saat) | nəzəri hissə (mühazirələr) (saat) | praktiki hissə (saat) |
| 1 | 2 | 3 | 4 | 5 |
| **1. Avtomobil nəqliyyatı ilə beynəlxalq yük daşımalarının əsasları** | | | | |
| 1.1. | - beynəlxalq yük daşımalarının növləri;<br>- avtomobil nəqliyyatı ilə beynəlxalq yük daşımaları;<br>- beynəlxalq nəqliyyat dəhlizləri;<br>- Beynəlxalq Avtomobil Nəqliyyatı İttifaqı (İRU), İRU-nun fəaliyyəti, sürücülərin və daşıyıcıların hüquqlarının və mənafelərinin qorunmasında rolu;<br>- avtomobil nəqliyyatı ilə beynəlxalq yük daşımalarını həyata keçirən sürücülərin peşəkarlıq səriştəsinə dair hazırlığın və yenidən hazırlığın nəticələrinə uyğun sənədlərin verilməsi | 1 | 1 | |
| **Mövzu üzrə saatların cəmi:** | | **1** | **1** | |

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| **2. Avtomobil nəqliyyatı ilə beynəlxalq yük daşımalarının tənzimlənməsinin hüquqi əsasları** | | | | |
| 2.1. | - avtomobil nəqliyyatı ilə beynəlxalq yük daşımalar sahəsində milli və beynəlxalq qanunvericilik (o cümlədən Azərbaycan Respublikasının qoşulduğu beynəlxalq müqavilələr);<br>- avtomobil nəqliyyatı ilə beynəlxalq yük daşımalarının tənzimlənməsində beynəlxalq təşkilatlar, dövlət qurumları və digər təşkilatlar (ictimai birliklər, kommersiya və qeyri-kommersiya təşkilatları və s.), bu sahədə onların rolu və fəaliyyəti | 2 | 2 | |
| 2.2. | - avtomobil nəqliyyatı ilə beynəlxalq daşımaları tənzimləyən “İcazə Sistemi”;<br>- daşımaların yerinə yetirilməsinə dövlət nəzarəti;<br>- daşıyıcıların və sürücülərin hüquq və vəzifələri, məsuliyyəti | 2 | 2 | |
| **Mövzu üzrə saatların cəmi:** | | **4** | **4** | |
| **3. Yük avtonəqliyyat vasitələrinə dair texniki tələblər** | | | | |
| 3.1. | - avtonəqliyyat vasitələrinə dair ümumi tələblər, onların qısa texniki xarakteristikası və təchizatı, texniki reqlamentlər və onların tətbiqi məqsədilə hazırlanan istinad edilmiş standartlar;<br>- təkərli avtonəqliyyat vasitələrinin beynəlxalq | 2 | 2 | |

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| | təsnifatı, dartqı, qoşqu və yarımqoşqular, avtoqatarlar;<br>- beynəlxalq yük daşımaları sahəsində ən çox istifadə edilən avtomobillər və onların inkişaf perspektivləri | | | |
| 3.2. | - avtonəqliyyat vasitələrinin qabarit, çəki və yüklə birlikdə oxa düşən kütlə parametrləri;<br>- avtonəqliyyat vasitələrinə dair ekoloji tələblər | 1 | 1 | |
| 3.3. | - avtonəqliyyat vasitələrinin təhlükəsizliyini artıran intellektual nəqliyyat sistemləri;<br>- avtonəqliyyat vasitələrinin istismarına dair tələblər, təhlükəsizlik tədbirləri və istismara nəzarət | 1 | 1 | |
| **Mövzu üzrə saatların cəmi:** | | **4** | **4** | |
| **4. Yol hərəkətinin təhlükəsizliyi** | | | | |
| 4.1. | - yol hərəkətinin təhlükəsizliyi sahəsində milli və beynəlxalq qanunvericilik;<br>- beynəlxalq avtomobil yolları şəbəkəsi;<br>- yol hərəkəti qaydaları və hərəkətin təşkili;<br>- yol hərəkəti qaydalarının pozulmasına görə sürücünün məsuliyyəti | 1 | 1 | |
| 4.2. | Yol-nəqliyyat hadisələri zamanı görülən tədbirlər:<br>- qəzanın nəticələrinin ağırlaşmasının qarşısının alınması, qəza baş vermiş yerdə işarələnmə işlərinin aparılması və vəziyyətin qiymətləndirilməsi;<br>- yanğın əleyhinə tədbirlərin görülməsi; | 1 | 1 | |

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| | - müvafiq qurumlara məlumat verilməsi, kömək çağırılması;<br>- yol-nəqliyyat hadisəsinin rəsmiləşdirilməsi | | | |
| 4.3. | İlk tibbi yardım:<br>- ilk tibbi yardım barədə ümumi məlumat;<br>- ilk tibbi yardım qutusunun tərkibi və ondan istifadə;<br>- yol-nəqliyyat hadisəsi nəticəsində zərərçəkənlərə ilk tibbi yardım göstərilməsi | 2 | 1 | 1 |
| 4.4. | Hərəkətin təhlükəsizliyinin əsasları:<br>- mürəkkəb yol şəraitində, o cümlədən sutkanın qaranlıq vaxtında və məhdudiyyətli görünmə şəraitində avtonəqliyyat vasitəsinin düzgün idarə edilməsi;<br>- hərəkətdə olan avtonəqliyyat vasitəsinin idarə olunmasını çətinləşdirən amillər;<br>- dönmə radiusları;<br>- avtomobilin sürətinin yükə və yol örtüyünə görə tənzimlənməsi;<br>- əyləc sisteminin xüsusiyyətləri, əyləc və sürətlər qutusunun aşağı pillələrindən istifadə məhdudiyyətləri, əyləc və sürətlər qutusunun aşağı pillələrindən birgə istifadə, sürət və ötürmə nisbətinin optimal istifadəsi, avtonəqliyyat vasitəsinin ətalətindən istifadə, yolun mailliyinin gərilmələrində | 3 | 2 | 1 |

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| | yavaşlama və əyləcdən düzgün istifadə yolları, əyləc sistemi işləmədikdə görülməli tədbirlər;<br>- sürücülərin psixoloji vəziyyətinin hərəkət təhlükəsizliyinə təsiri;<br>- ekstremal şəraitlərdə sürücülərin düzgün qərar qəbul etməsi;<br>- baş verə biləcək yol-nəqliyyat hadisələrinin vaxtında qarşısının alınması üçün görülən tədbirlər;<br>- avtonəqliyyat vasitələrinin qənaətli sürülməsi üzrə tövsiyələr;<br>- avtonəqliyyat vasitələrinin texniki vəziyyətinin reysqabağı yoxlanılması və sürücülərin reysqabağı tibbi müayinəsi | | | |
| 4.5. | Yükgötürmə, yükləmə qaydaları və təhlükəsizlik tədbirləri | 2 | 1 | 1 |
| 4.6. | sürücülərin sağlamlığı:<br>- sürücülərin iş və istirahət rejimi;<br>- taxoqraflar və onlardan istifadə;<br>- sürücü, daşıyıcı, nəzarətçi və emalatxana kartları;<br>- sürücülərin növbəli iş rejimi;<br>- iş və istirahət rejiminə əməl edilməsinə nəzarət, ölkədaxili və beynəlxalq praktika, məsuliyyət müəyyən edən normalar və onların tətbiqi üzrə təcrübə | 4 | 3 | 1 |
| **Mövzu üzrə saatların cəmi:** | | **13** | **9** | **4** |

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| **5. Avtomobil nəqliyyatı ilə beynəlxalq yük daşımalarının təşkili** | | | | |
| 5.1. | Beynəlxalq yük daşımalarının rəsmiləşdirilməsi:<br>- Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 17 sentyabr tarixli 142 nömrəli Qərarı ilə təsdiq edilmiş “Avtomobil nəqliyyatı ilə yüklərin daşınması Qaydaları”;<br>- beynəlxalq nümunəli əmtəə-nəqliyyat qaiməsinin (CMR) rəsmiləşdirilməsi;<br>- beynəlxalq nümunəli əmtəə-nəqliyyat qaiməsinin (CMR) tətbiqi ilə əlaqədar sürücünün yükləmə və yükü boşaltma zamanı vəzifələri;<br>- yüklərin çatdırılmasının xüsusi razılaşdırılmış şərtləri;<br>- yükün dəyərinin elan edilməsi;<br>- yükün qəbulu və təhvili, yükün yönəldilməsi və tərəflərin məsuliyyəti;<br>- daşımaların və ya yükün tamlığının təmin edilməsi üsulları | 2 | 1 | 1 |
| 5.2. | Avtomobil nəqliyyatı ilə beynəlxalq yük daşımaları üçün zəruri olan sənədlər:<br>- sürücü üçün tələb olunan sənədlər;<br>- avtonəqliyyat vasitəsi üçün tələb olunan sənədlər;<br>- yükə aid sənədlər;<br>- tətbiq olunan yol vərəqəsinin forması və doldurulması qaydası | 1 | 1 | |

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| 5.3. | Təhlükəli yüklərin daşınması:<br>- təhlükəli yüklərin daşınması və təsnifatı;<br>- təhlükəli yüklər barədə nişanlar və informasiya lövhələri. | 1 | 1 | |
| 5.4. | İriqabaritli və ağırçəkili yüklərin daşınması:<br>- iriqabaritli və ağırçəkili yüklər, onların daşınması barədə məlumat;<br>- konteynerlərdə, paletlərdə və çıxarılabilən banlarda daşımalar barədə məlumat;<br>- konteynerlərin və paletlərin banlarda yerləşdirilməsi və bərkidilməsi;<br>- avtonəqliyyat vasitəsinin oxlarına düşən yükün paylanması;<br>- multimodal, intermodal, Ro-Ro və Lo-Lo daşımaları | 2 | 2 | |
| 5.5. | Tezkorlanan və digər yüklərin daşınması:<br>- tezkorlanan yüklərin daşınmasının xüsusiyyətləri;<br>- avtonəqliyyat vasitələrinin müayinəsi, yükün yüklənməsi və daşınması zamanı temperatur rejimi, temperatur rejiminə nəzarət və termoqraflar;<br>- canlı heyvanların daşınması ilə bağlı qayda və prosedurların tətbiqi, habelə sənədləşdirmə | 2 | 2 | |
| 5.6. | Avtomobil nəqliyyatı ilə beynəlxalq daşımalarda sığorta:<br>- avtomobil nəqliyyatı ilə daşımalarda sığorta | 1 | 1 | |

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| | anlayışı və onun ümumi prinsipləri;<br>- sığorta hadisəsi, obyekti və sığorta müqaviləsi;<br>- sığorta hadisəsinin sənədləşdirilməsi qaydası;<br>- icbari və könüllü sığortanın növləri;<br>- avtomobil nəqliyyatı ilə beynəlxalq daşımalarda “Yaşıl kart” sığorta sistemi;<br>- sürücünün bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığortalanması | | | |
| **Mövzu üzrə saatların cəmi:** | | **9** | **8** | **1** |
| **6. Gömrük prosedurları və sənədləşmə** | | | | |
| 6.1. | - gömrük nəzarəti və gömrük orqanları;<br>- gömrük bəyannaməsi;<br>- avtonəqliyyat vasitələrinin bəyan edilməsi;<br>- qısa idxal bəyannaməsinin verilməsi;<br>- gömrük proseduru ilə bağlı yükləmə, boşaltma və digər əməliyyatlar, o cümlədən avtonəqliyyat vasitəsinin dəyişdirilməsi;<br>- gömrük rəsmiləşdirilməsi üçün zəruri olan sənədlər və məlumatlar;<br>- “BYD Kitabçası tətbiq edilməklə beynəlxalq yük daşımaları haqqında” Gömrük Konvensiyası;<br>- “Konteynerlərə aid Gömrük Konvensiyası”;<br>- “Sərhədlərdə yüklərin nəzarətdən keçirilməsi | 5 | 4 | 1 |

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| | şərtlərinin razılaşdırılması haqqında” Beynəlxalq Konvensiya | | | |
| **Mövzu üzrə saatların cəmi:** | | **5** | **4** | **1** |
| **7. Viza rəsmiləşdirilməsi** | | | | |
| 7.1. | - avtomobil nəqliyyatı ilə beynəlxalq daşımalarda viza təminatı və pasport;<br>- viza ilə və ya vizasız giriş;<br>- ölkələrin viza sistemi;<br>- ərazisindən daşıma həyata keçirilən ölkələrdən viza alınmasının xüsusiyyətləri;<br>- viza verilməsinin ümumi qaydası;<br>- Şengen Müqaviləsi ölkələrinin viza sistemi;<br>- Şengen Müqaviləsi ölkəsinin vizasından istifadəyə məhdudiyyətlər;<br>- sərhəd buraxılış məntəqələrində sənədlərin rəsmiləşdirilməsi | 1 | 1 | |
| **Mövzu üzrə saatların cəmi:** | | **1** | **1** | |
| **8. Avtonəqliyyat vasitələrinin sürücülərinə dair tələblər və onların davranışının işgüzar nüfuza təsiri** | | | | |
| 8.1. | - sürücülərə dair ümumi tələblər;<br>- sürücülərin xarici görünüşü və geyim forması;<br>- sürücünün davranışı və şirkətin işgüzar nüfuzu;<br>- sürücü tərəfindən göstərilən xidmətin səviyyəsinin şirkət üçün əhəmiyyəti;<br>- sürücünün ünsiyyət qurduğu şəxslər;<br>- sürücülərin etik normalara riayət etməsi və davranış qaydaları | 1 | 1 | |
| **Mövzu üzrə saatların cəmi:** | | **1** | **1** | |

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| **9. İnsan alverinin qarşısının alınması və onunla mübarizə aparılması.** | | | | |
| 9.1. | - insan alverinin qarşısının alınması və onunla mübarizə aparılması barədə məlumat | 1 | 1 | |
| **Mövzu üzrə saatların cəmi:** | | **1** | **1** | |
| **Ümumi tədris proqramı üzrə saatların cəmi:** | | **39** | **33** | **6** |

“Avtomobil nəqliyyatı ilə beynəlxalq sərnişin və yük daşımaları fəaliyyətinin operatorunun məsul şəxslərinə, habelə beynəlxalq sərnişin və yük daşımalarını həyata keçirən sürücülərə hazırlığın keçirilməsi və qiymətləndirilmənin aparılması Qaydası”na

**3 nömrəli əlavə**

# Avtomobil nəqliyyatı ilə beynəlxalq sərnişin daşımalarını həyata keçirən sürücülərin peşəkarlıq səriştəsinə dair

# PROQRAM

| Sıra №-si | Mövzuların adları | Hazırlıq üzrə məşğələlərin növləri və həcmi (saatla) | | |
|---|---|---|---|---|
| | | cəmi (saat) | nəzəri hissə (mühazirələr) (saat) | praktiki hissə (saat) |
| 1 | 2 | 3 | 4 | 5 |
| **1. Avtomobil nəqliyyatı ilə beynəlxalq sərnişin daşımalarının əsasları** | | | | |
| 1.1. | - beynəlxalq sərnişin daşımalarının növləri;<br>- avtomobil nəqliyyatı ilə beynəlxalq sərnişin daşımaları;<br>- beynəlxalq nəqliyyat dəhlizləri;<br>- Avropa İttifaqı ölkələrində və daşımaların həyata keçirildiyi digər ölkələrdə avtomobil nəqliyyatı ilə beynəlxalq sərnişin daşımalarının əsas xüsusiyyətləri;<br>- avtomobil nəqliyyatı ilə beynəlxalq sərnişin daşımalarını həyata keçirən sürücülərin peşəkarlıq səriştəsinə dair hazırlığın və yenidən hazırlığın nəticələrinə uyğun sənədlərin verilməsi | 1 | 1 | |
| **Mövzu üzrə saatların cəmi:** | | **1** | **1** | |

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| **2. Avtomobil nəqliyyatı ilə beynəlxalq sərnişin daşımalarının tənzimlənməsinin hüquqi əsasları** | | | | |
| 2.1. | - avtomobil nəqliyyatı ilə beynəlxalq daşımalar sahəsində milli və beynəlxalq qanunvericilik (o cümlədən Azərbaycan Respublikasının qoşulduğu beynəlxalq müqavilələr);<br>- Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 17 sentyabr tarixli 141 nömrəli Qərarı ilə təsdiq edilmiş "Avtomobil nəqliyyatı ilə sərnişin və baqaj daşınması Qaydaları";<br>- avtomobil nəqliyyatı ilə beynəlxalq daşımaların tənzimlənməsində beynəlxalq təşkilatlar, dövlət qurumları və digər təşkilatlar (ictimai birliklər, kommersiya və qeyri-kommersiya təşkilatları və s.), bu sahədə onların rolu və fəaliyyəti | 2 | 2 | |
| 2.2. | - daşımaların yerinə yetirilməsinə dövlət nəzarəti;<br>- avtomobil nəqliyyatı ilə beynəlxalq daşımaları tənzimləyən "İcazə Sistemi";<br>- avtomobil nəqliyyatı ilə beynəlxalq daşımalar sahəsində tətbiq olunan müqavilələr;<br>- daşıyıcıların, sürücülərin, sərnişinlərin hüquq və vəzifələri, məsuliyyəti | 2 | 2 | |
| **Mövzu üzrə saatların cəmi:** | | **4** | **4** | |

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| **3. Sərnişin daşıyan avtonəqliyyat vasitələrinə dair tələblər** | | | | |
| 3.1. | - avtonəqliyyat vasitələrinə dair ümumi tələblər, onların qısa texniki xarakteristikası və təchizatı, texniki reqlamentlər və onların tətbiqi məqsədilə hazırlanan istinad edilmiş standartlar;<br>- təkərli avtonəqliyyat vasitələrinin beynəlxalq təsnifatı;<br>- avtonəqliyyat vasitələrinin uyğunluğu;<br>- beynəlxalq sərnişin daşımaları sahəsində ən çox istifadə edilən avtomobillər və onların inkişaf perspektivləri;<br>- avtonəqliyyat vasitələrinə dair ekoloji tələblər | 2 | 2 | |
| 3.2. | - avtonəqliyyat vasitələrinin təhlükəsizliyini artıran intellektual nəqliyyat sistemləri;<br>- avtomobil nəqliyyatı ilə beynəlxalq daşımalarda informasiya kommunikasiya texnologiyalarının tətbiqi;<br>- avtonəqliyyat vasitələrinin istismarına dair tələblər, təhlükəsizlik tədbirləri və istismara nəzarət | 2 | 2 | |
| **Mövzu üzrə saatların cəmi:** | | **4** | **4** | |
| **4. Yol hərəkətinin təhlükəsizliyi** | | | | |
| 4.1. | - yol hərəkətinin təhlükəsizliyi sahəsində milli və beynəlxalq qanunvericilik;<br>- beynəlxalq avtomobil yolları şəbəkəsi;<br>- yol hərəkəti qaydaları və hərəkətin təşkili;<br>- yol hərəkəti qaydalarının pozulmasına görə sürücünün məsuliyyəti | 2 | 2 | |

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| 4.2 | Yol-nəqliyyat hadisələri zamanı görülən tədbirlər:<br>- qəzanın nəticələrinin ağırlaşmasının qarşısının alınması, qəza baş vermiş yerdə işarələnmə işlərinin aparılması və vəziyyətin qiymətləndirilməsi;<br>- yanğın əleyhinə tədbirlərin görülməsi;<br>- müvafiq qurumlara məlumatların verilməsi, kömək çağırılması;<br>- yol-nəqliyyat hadisəsinin rəsmiləşdirilməsi. | 1 | 1 | |
| 4.3. | İlk tibbi yardım:<br>- ilk tibbi yardım barədə ümumi məlumat;<br>- ilk tibbi yardım qutusunun tərkibi və ondan istifadə;<br>- yol-nəqliyyat hadisəsində zərərçəkənlərə ilk tibbi yardım göstərilməsi | 2 | 1 | 1 |
| 4.4. | Hərəkət təhlükəsizliyinin əsasları:<br>- mürəkkəb yol şəraitində, o cümlədən sutkanın qaranlıq vaxtında və məhdudiyyətli görünmə şəraitində avtonəqliyyat vasitəsinin düzgün idarə edilməsi;<br>- hərəkətdə olan avtonəqliyyat vasitəsinin idarə olunmasını çətinləşdirən amillər;<br>- dönmə radiusları;<br>- avtomobilin sürətinin yükə və yol örtüyünə görə tənzimlənməsi;<br>- əyləc sisteminin xüsusiyyətləri, əyləc və sürətlər qutusunun aşağı | 3 | 2 | 1 |

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| | pillələrindən istifadə məhdudiyyətləri, əyləc və sürətlər qutusunun aşağı pillələrindən birgə istifadə, sürət və ötürmə nisbətinin optimal istifadəsi, avtonəqliyyat vasitəsinin ətalətindən istifadə, yolun mailliyinin gərilmələrində yavaşlama və əyləcdən düzgün istifadə yolları, əyləc sistemi işləmədikdə görülməli tədbirlər;<br>- sürücülərin psixoloji vəziyyətinin hərəkət təhlükəsizliyinə təsiri;<br>- ekstremal şəraitlərdə sürücülərin düzgün qərar qəbul etməsi;<br>- baş verə biləcək yol-nəqliyyat hadisələrinin vaxtında qarşısının alınması üçün görülən tədbirlər;<br>- avtonəqliyyat vasitələrinin qənaətli sürülməsi üzrə tövsiyələr | | | |
| 4.5. | - avtonəqliyyat vasitələrinin texniki vəziyyətinin reysqabağı yoxlanılması və sürücülərin reysqabağı tibbi müayinəsi;<br>- baqajın yükləmə qaydaları və təhlükəsizlik tədbirləri | 1 | 1 | |
| 4.6. | Sürücülərin sağlamlığı;<br>Sürücülərin iş və istirahət rejimi;<br>- taxoqraflar və onlardan istifadə;<br>- sürücü, daşıyıcı, nəzarətçi və emalatxana kartları;<br>- sürücülərin növbəli iş rejimi;<br>- iş və istirahət rejiminə əməl edilməsinə nəzarət, | 3 | 2 | 1 |

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| | ölkədaxili və beynəlxalq praktika, məsuliyyət müəyyən edən normalar və onların tətbiqi üzrə təcrübə | | | |
| **Mövzu üzrə saatların cəmi:** | | **12** | **9** | **3** |
| **5. Avtomobil nəqliyyatı ilə beynəlxalq sərnişin daşımalarının təşkili** | | | | |
| 5.1. | Avtomobil nəqliyyatı ilə beynəlxalq sərnişin daşımaları üçün zəruri olan sənədlər:<br>- sürücü üçün tələb olunan sənədlər;<br>- avtonəqliyyat vasitəsi üçün tələb olunan sənədlər;<br>- avtomobil nəqliyyatı ilə beynəlxalq sərnişin daşımalarında icazələr və tələb olunan digər sənədlər | 2 | 1 | 1 |
| 5.2. | Sərnişin daşımaları:<br>- avtomobil nəqliyyatı ilə beynəlxalq sərnişin daşımalarının təşkili və yerinə yetirilməsinin xüsusiyyətləri;<br>- avtovağzallar (avtostansiyalar) və sərnişin terminalları;<br>- sərnişinlərin təhlükəsiz daşınması;<br>- biletin, baqaj qəbzinin və birkasının forması və onların sənədləşdirilməsi;<br>- sərnişin avtonəqliyyat vasitəsinin icarəsi (fraxtetmə) müqaviləsi;<br>- qeyri-müntəzəm sərnişin daşımalarında formulyarın doldurulması; | 4 | 4 | |

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| | - sərnişinlərin beynəlxalq daşınması zamanı viza təminatı;<br>- uşaq qruplarının daşınmasının xüsusiyyətləri | | | |
| 5.3. | Avtomobil nəqliyyatı ilə beynəlxalq daşımalarda sığorta:<br>- avtomobil nəqliyyatı ilə daşımalarda sığorta anlayışı və onun ümumi prinsipləri;<br>- sığorta hadisəsi, obyekti və sığorta müqaviləsi;<br>- sığorta hadisəsinin sənədləşdirilməsi qaydası;<br>- icbari və könüllü sığortanın növləri;<br>- sərnişinlərin icbari fərdi qəza sığortası;<br>- sürücünün bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığortalanması | 1 | 1 | |
| **Mövzu üzrə saatların cəmi:** | | **7** | **6** | **1** |
| **6. Gömrük prosedurları və sənədləşmə** | | | | |
| 6.1. | - gömrük nəzarəti və gömrük orqanları;<br>- gömrük bəyannaməsi;<br>- avtonəqliyyat vasitələrinin bəyan edilməsi;<br>- qısa idxal bəyannaməsinin verilməsi;<br>- fiziki şəxslər tərəfindən malların şəxsi istifadə üçün gömrük sərhədindən keçirilməsi;<br>- gömrük rəsmiləşdirilməsi üçün zəruri olan sənədlər və məlumatlar | 2 | 2 | |
| **Mövzu üzrə saatların cəmi:** | | **2** | **2** | |

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| **7. Viza rəsmiləşdirilməsi** | | | | |
| 7.1. | - avtomobil nəqliyyatı ilə beynəlxalq daşımalarda viza təminatı və pasport;<br>- viza ilə və ya vizasız giriş;<br>- ölkələrin viza sistemi;<br>- ərazisindən daşıma həyata keçirilən ölkələrdən viza alınmasının xüsusiyyətləri;<br>- viza verilməsinin ümumi qaydası;<br>- Şengen Müqaviləsi ölkələrinin viza sistemi;<br>- Şengen Müqaviləsi ölkəsinin vizasından istifadəyə məhdudiyyətlər;<br>- sərhəd buraxılış məntəqələrində sənədlərin rəsmiləşdirilməsi | 1 | 1 | |
| **Mövzu üzrə saatların cəmi:** | | **1** | **1** | |
| **8. Avtonəqliyyat vasitələrinin sürücülərinə dair tələblər və onların davranışının işgüzar nüfuza təsiri** | | | | |
| 8.1. | - sürücülərə dair ümumi tələblər;<br>- sürücülərin xarici görünüşü və geyim forması;<br>- sürücünün davranışı və şirkətin işgüzar nüfuzu;<br>- sürücü tərəfindən göstərilən xidmətin səviyyəsinin şirkət üçün əhəmiyyəti;<br>- sürücünün ünsiyyət qurduğu şəxslər;<br>- sürücülərin etik normalara riayət etməsi, sərnişinlərlə etik davranış qaydaları | 2 | 2 | |
| **Mövzu üzrə saatların cəmi:** | | **2** | **2** | |

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| **9. İnsan alverinin qarşısının alınması və onunla mübarizə aparılması** | | | | |
| 9.1. | - insan alverinin qarşısının alınması və onunla mübarizə aparılması barədə məlumat | 1 | 1 | |
| **Mövzu üzrə saatların cəmi:** | | **1** | **1** | |
| **Ümumi tədris proqramı üzrə saatların cəmi:** | | **34** | **30** | **4** |

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 9 iyul tarixli 335 nömrəli Qərarı ilə **təsdiq edilmişdir.**

**2 nömrəli əlavə**

**Avtomobil nəqliyyatı ilə beynəlxalq sərnişin və yük daşımaları fəaliyyətinin operatorunun məsul şəxsinin peşəkarlıq səriştəsinə dair hazırlığının və yenidən hazırlığının qiymətləndirilməsinin nəticələrinə dair sənədin forması**

<table>
<tr><td>AZ</td><td>Məsul şəxsin Peşəkarlıq Səriştəsi Şəhadətnaməsi/<br>Certificate of Professional Competence for the Road Transport Manager</td><td rowspan="2">Azərbaycan Respublikası/<br>The Republic of Azerbaijan</td></tr>
<tr><td>QR kod</td><td>№ ____________</td></tr>
<tr><td colspan="3">Verilir/Given to ______________________________________________<br>(soyadı, adı və atasının adı/surname, given name and patronymic)</td></tr>
<tr><td colspan="2">Verildiyi tarix/Date of issue “______” ____________ 20______ il/year</td><td>Etibarlıdır/Date of expiry “______”__________ _____ 20______ il/year</td></tr>
<tr><td colspan="3">Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi/State Examination Center of the Republic of Azerbaijan<br><br>______________________________________________<br>(qurumun rəhbərinin soyadı və adı / surname and name of the head of the organization)<br><br>__________________<br>(imza)/(signature)<br>M.Y./Seal</td></tr>
</table>

**Qeydlər:**
1. Sənəd ölçüsü A4 (210x297 mm), səthi hamar və rəngi parlaq ağ olan kağızda çap edilməlidir.
2. Sənədin çapı üçün istifadə olunmuş kağız və boya ən azı 7 (yeddi) il öz keyfiyyətini və xüsusiyyətlərini saxlamalıdır.
3. Sənədin istehsalı üçün istifadə olunan kağızın tərkibində görünən flüoressent liflər vardır, optik cəhətdən ultrabənövşəyi şüaları buraxmır, istehsalında gilyoş, mikroçap və qabarıq çap üsullarından istifadə edilir.
4. Sənədin verilməsinə görə əlavə ödəniş tələb edilmir.
5. Sənəd Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən internet portalında yaradılmış sürücünün şəxsi kabinetinə yerləşdirilir.

**Avtomobil nəqliyyatı ilə beynəlxalq sərnişin və yük daşımalarını həyata keçirən sürücülərin peşəkarlıq səriştəsinə dair hazırlığının və yenidən hazırlığının qiymətləndirilməsinin nəticələrinə dair sənədin forması**

<table>
<tr><td>AZ</td><td rowspan="2">Sürücünün Peşəkarlıq Səriştəsi Şəhadətnaməsi/<br>Certificate of Professional Competence for Driver</td><td rowspan="3">Azərbaycan Respublikası/<br>The Republic of Azerbaijan</td></tr>
<tr><td rowspan="2">QR kod</td></tr>
<tr><td>№ ____________</td></tr>
<tr><td colspan="3">Verilir/Given to ____________________________________________________________<br>(soyadı, adı və atasının adı/surname, given name and patronymic)</td></tr>
<tr><td colspan="2">Sürücülük vəsiqəsi/Driving license № _____________________</td><td>Kateqoriya/Category<br>(altkateqoriya/subcategory)_____________________________</td></tr>
<tr><td colspan="2">Verildiyi tarix/Date of issue "______" ____________ 20______ il/year</td><td>Etibarlıdır/Date of expiry "______"______________ 20________ il/year</td></tr>
<tr><td colspan="3">Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi/State Examination Center of the Republic of Azerbaijan<br><br>______________________________________________________________<br>(qurumun rəhbərinin soyadı və adı/surname and name of the head of the organization)<br><br>__________________<br>(imza)/(signature)<br>M.Y./Seal</td></tr>
</table>

**Qeydlər:**
1. Sənəd ölçüsü A4 (210x297 mm), səthi hamar və rəngi parlaq ağ olan kağızda çap edilməlidir.
2. Sənədin çapı üçün istifadə olunmuş kağız və boya ən azı 7 (yeddi) il öz keyfiyyətini və xüsusiyyətlərini saxlamalıdır.
3. Sənədin istehsalı üçün istifadə olunan kağızın tərkibində görünən flüoressent liflər vardır, optik cəhətdən ultrabənövşəyi şüaları buraxmır, istehsalında gilyoş, mikroçap və qabarıq çap üsullarından istifadə edilir.
4. Sənədin verilməsinə görə əlavə ödəniş tələb edilmir.
5. Sənəd Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən internet portalında yaradılmış sürücünün şəxsi kabinetinə yerləşdirilir.